*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**



# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 15 dekabr 2018-ci il № 97 (2313) Qiymәti 25 qәpik

# Azərbaycan Prezidenti İlham Əliyev ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edib



*Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatından 15 il keçir.*

AZƏRTAC xəbər verir ki, dekabrın 12-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və ailə üzvləri Fəxri xiyabana gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin məzarını ziyarət ediblər.

Milli Məclisin deputatları, nazirlər, komitələrin, şirkətlərin və idarələrin rəhbərləri, respublika ictimaiyyətinin nümayəndələri də Fəxri xiyabana gəlmişdilər.

Prezident İlham Əliyev Ulu Öndərin məzarı önünə əklil qoydu.

Azərbaycanın Dövlət himni səsləndi.

Dövlətimizin başçısı İlham Əliyev və ailə üzvləri Ulu Öndərin ömür-gün yoldaşı, görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da məzarı üzərinə gül dəstələri qoydular.

Tanınmış dövlət xadimi Əziz Əliyevin və professor Tamerlan Əliyevin də xatirələri yad edildi, məzarları üstünə gül dəstələri düzüldü.

Ümummilli lider Heydər Əliyevin məzarının ziyarət edilməsi mərasimində Baş nazir Novruz Məmmədov, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak ediblər.

Vəfatından sonra xalqın yaddaşında qalmaq hər kəsə nəsib olmur. Xalq yalnız sevdiklərini yadda saxlayır və yaşadır. Heydər Əliyev misilsiz xidmətlərinə görə hər zaman Vətəni, xalqı üçün əziz olaraq qalacaq. Çünki bu dahi insan öz nəcib əməlləri ilə hələ sağlığında ikən tarixin yaddaşında əbədiləşmiş böyük azərbaycanlıdır.

İstedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. Onlar heç bir zamana və məkana sığmırlar. Bu, əsrlərin sınağından çıxan və öz təsdiqini tapan həqiqətdir. Zaman bu həqiqəti də təsdiq edir ki, dünyanın tarixi böyük şəxsiyyətlərin mənalı ömür yoludur. Bu mənada Heydər Əliyevin ömür yolu müasir Azərbaycanın tarixidir. Elə bu səbəbdən də bu ömür yolu hər zaman yaddaşlarda yaşayacaq.

Ulu Öndərin hakimiyyətdə olduğu 35 ildə Azərbaycana bəxş etdiklərini tarix boyunca heç bir hakimiyyət sahibi etməyib. Əfsanəvi şəxsiyyət, Ulu Öndər, böyük rəhbər, Ümummilli Lider, müasir müstəqil Azərbaycanın qurucusu, xalqın sevimli, unudulmaz övladı... Bu ifadələrin hamısı yalnız ona aiddir, yalnız onun ünvanınadır. Çünki o, Azərbaycan salnaməsində təkrarolunmaz rəhbər, qüdrətli dövlət başçısı, fədakar insan kimi qalıb. Çünki o, Azərbaycanı dünyaya, dünyanı Azərbaycana tanıtdı. O, Azərbaycanı qorumaq üçün yaşadı, Azərbaycanı yaşatmaq üçün qurub yaratdı. Heydər Əliyevin parlaq dühası onu Azərbaycan xalqının ümummilli lideri zirvəsinə yüksəltdi, dünya siyasətinin nəhənglərindən birinə çevirdi. Odur ki, Azərbaycan xalqı bu böyük övladı ilə haqlı olaraq fəxr edir.

"Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mədəni inkişafına xidmət olmuşdur", - deyən ulu öndər Heydər Əliyev istər sovet dönəmində, istərsə də müstəqillik illərində qüdrəti və zəkası, böyük müdrikliyi və uzaqgörənliyi ilə Azərbaycanı dünya dövlətləri sırasında layiqli yerə çıxardı. O, keçmiş SSRİ-nin ən nüfuzlu siyasi xadimlərindən biri idi. Buna görə də "Azərbaycan sənin üçün kiçikdir, sən İttifaqa lazımsan", - deyə onu Moskvaya dəvət etdilər. Amma burada o, həm də onu gözü götürməyən məkrli qorbaçovların xəyanətinə tuş gəldi və Vətəninə qayıtdı. Bu qayıdış isə daha möhtəşəm oldu. Ulu Öndər xalqımızı öz ətrafında, bir bayraq altında birləşdirə bildi. Hər kəsi sözünün qüdrəti ilə inandırdı. Sözünü əməlləri ilə gerçəyə çevirdi. Uzaqgörən, müdrik siyasəti ilə Azərbaycanı fəlakətlərdən xilas etdi. O, sözün həqiqi mənasında, xalqının xilaskarına çevrildi.

Meydana silahsız gələn bu dahi insan qüdrətli Azərbaycan Ordusu yaratdı, cəbhədə atəşkəsə nail oldu, iqtisadiyyatı dirçəltdi. Azərbaycanın müasir tarixində misilsiz işlərə imza atdı. Heydər Əliyev dövrü Azərbaycan tarixinin, mədəniyyətinin, elminin, təhsilinin qızıl dövrünə çevrildi. Türk dünyasının bu böyük oğlunun danılmaz xidmətlərindən biri güclü, sabitliyə qovuşmuş Azərbaycan idisə, digəri, özünə layiq siyasi varisin yetişdirilməsi idi. O, öz baxışlarını, ideyalarını, öz yolunu davam etdirməyə qadir bir Prezident yetişdirdi. O, uzunömürlü bir dövlətçilik məktəbi və bu məktəbi ondan sonra davam etdirə biləcək bir şəxsiyyət qoyub getdi. Bu şəxsiyyət Ulu Öndərin siyasi kursunu inamla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevdir.

# Azərbaycan Prezidenti İlham Əliyev 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdə iştirak edib

*Dekabrın 13-də Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasim keçirilib. AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin prezidenti İlham Əliyev mərasimdə iştirak edib.*

*Dövlətimizin başçısı tədbirdə çıxış etdi.*




- Əziz dostlar, 2018-ci il sona yaxınlaşır. Hər il idmançılarla görüş zamanı biz ilin idman yekunlarını müzakirə edirik, gələcək planlar haqqında danışırıq. 2018-ci il ölkəmiz üçün çox uğurlu il olmuşdur. Bütün sahələrdə, o cümlədən idman sahəsində ölkəmiz böyük uğurlar əldə etmişdir.

Dünyada isə bildiyiniz kimi, 2018-ci ildə bir çox təhlükəli proseslər getmişdir və demək olar ki, beynəlxalq vəziyyət daha da gərginləşmişdir. Qanlı toqquşmalar, müharibələr, etiraz aksiyaları və digər hadisələr demək olar ki, 2018-ci ilin mənzərəsini əks etdirir.

Azərbaycanda isə sabitlik, təhlükəsizlik təmin edilmişdir. Azərbaycan öz yolu ilə uğurla gedir və qarşıda duran bütün vəzifələri icra edir. Əlbəttə, biz dünyada gedən prosesləri izləyirik. Biz bu proseslərə biganə qala bilmərik. Çünki həm Avropada, həm bizim regionumuzda, Yaxın Şərqdə gedən proseslər narahatlıq doğurur.

Bildiyiniz kimi, bu il Ermənistanda çox ciddi dəyişikliklər baş vermişdir. 20 il ərzində hakimiyyəti qanunsuz olaraq zəbt etmiş kriminal xunta rejimi çökdü və bizim dediyimizi indi erməni xalqı deyir. Kriminal, rüşvətxor rejim 20 il ərzində öz xalqını istismar edirdi və bu rejimin acı sonu məntiqə tam uyğundur. Onu da deməliyəm ki, bizim ardıcıl, məqsədyönlü siyasətimiz kriminal xunta rejiminin çökməsində öz rolunu oynamışdır. Çünki bizim siyasətimiz dəyişməz olaraq qalır. Nə vaxta qədər ki, bizim torpaqlarımız işğal altındadır, biz bütün imkanlardan istifadə edib Ermənistanı təcrid vəziyyətində saxlayacağıq və buna nail olduq.

Bizim təşəbbüsümüzlə reallaşan qlobal enerji, nəqliyyat layihələri Ermənistandan yan keçir. Bizim siyasətimiz nəticəsində Ermənistanda demoqrafik böhran yaşanır, insanlar ölkəni kütləvi surətdə tərk edir, iqtisadi inkişaf üçün heç bir əsas yoxdur, xarici sərmayə qoyulmur, onların beynəlxalq bazarlara çıxışı çox çətinləşib. Beynəlxalq müstəvidə sübut edə bilmişik ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsində haqlı tərəf bizik. Yəni, bütün bu və başqa amillər, əlbəttə, bizim hərbi qüdrətimiz Ermənistanı bu ağır vəziyyətə salmışdır.

İşğal edilmiş torpaqlarımızın bir hissəsinin iki il bundan əvvəl işğalçılardan azad edilməsi, o torpaqlarda Azərbaycan bayrağının qaldırılması kriminal rejimə çox böyük zərbə olmuşdur. O vaxtdan bu günə qədər o ölkənin güclü olmayan dayaqları daha da laxlayaraq sıradan çıxıb. Yəni, bu, bizim qonşuluğumuzda baş vermiş hadisələrdir. Əlbəttə, hesab edirəm ki, bu gün Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli üçün daha əlverişli vəziyyət yaranıb. Bir çox amillər bunu deməyə əsas verir. İlk növbədə, bizim artan gücümüz, potensialımız, iqtisadi, hərbi, siyasi gücümüz, beynəlxalq mövqelərimiz bunu deməyə əsas verir. Biz bu istiqamətdə öz ardıcıl siyasətimizi davam etdirəcəyik.

Eyni zamanda, Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq sözlər deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəyi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olmuşdur. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapmışdır. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapmışdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır. Mən deyəndə ki, bizim beynəlxalq nüfuzumuz artır, bunu nəzərdə tuturam. Eyni zamanda, Azərbaycan xalqı bunu yaxşı bilir ki, hətta Ermənistanın üzv olduğu, bizim üzv olmadığımız təşkilatlarda da bizim mövqeyimiz üstünlük təşkil edir və bu, Ermənistanda isterikaya səbəb olur.

Dünən Bakıda Rusiya və NATO-nun ali hərbi rəhbərlərinin növbəti görüşü olmuşdur. Bu, birinci görüş deyil. Bundan əvvəl Amerika və Rusiya baş qərargah rəislərinin Bakıda görüşü olmuşdur. NATO-Rusiya hərbi rəhbərlərinin görüşü də mütəmadi olaraq Azərbaycanda keçirilir. Bu, çox əlamətdar hadisədir. Dünyada BMT-yə üzv olan 200-ə yaxın ölkə var və bu ölkələr arasında bu görüş məhz Azərbaycanda keçirilir. Avropada 50-yə yaxın ölkə var, ancaq bu görüş Azərbaycanda keçirilir. Nəyə görə? Bunun bir neçə səbəbi var. İlk növbədə, bizə olan inam. Azərbaycan çox etibarlı tərəfdaşdır, sözümüzlə əməlimiz arasında heç bir fərq yoxdur, verdiyimiz hər bir sözə əməl edirik və sözümüzün arxasında dayanırıq. Digər tərəfdən, bizə olan hörmət. Bu gün apardığımız siyasət bizə dünyada çox böyük hörmət qazandırıb, Azərbaycana çox böyük rəğbət var. Müstəqil siyasət apararaq, sözün əsl mənasında, müstəqil ölkə kimi özümüzü təsdiq edə bilmişik. Hesab edirəm ki, bu, ikinci səbəbdir. Üçüncü səbəb ondan ibarətdir ki, həm Rusiya, həm də NATO ilə bizim sıx əlaqələrimiz var. Rusiya ilə strateji tərəfdaşlıq əlaqələrimiz gündən-günə güclənir. NATO ilə bir çox proqramlar əsasında işləyirik, Əfqanıstana sülhməramlı əməliyyatların keçirilməsi üçün böyük dəstək oluruq, yardımlar edirik və digər amillər burada rol oynayıb. Amma bir daha Azərbaycan ictimaiyyətinin diqqətini bu məsələyə cəlb etmək istəyirəm ki, məhz Azərbaycanda bu dünya üçün çox böyük əhəmiyyət daşıyan görüş keçirilir.

Azərbaycan iqtisadi sahədə bütün vəzifələri uğurla icra edir. İqtisadiyyatımız artır, sosial məsələlər öz həllini tapır. 2018-ci ildə bir çox önəmli infrastruktur layihəsi uğurla icra olunmuşdur, nəqliyyat və neft-qaz sahələrində tarixi nailiyyətlər əldə edilmişdir. Bütün bunları biz etmişik, Azərbaycan xalqının böyük dəstəyi ilə buna nail olmuşuq.

Beləliklə, ilə yekun vuraraq qeyd etmək olar ki, bu il də çox uğurlu olmuşdur, o cümlədən idman sahəsində. İdmançılarımız bizi hər il sevindirir. Bizim cəmiyyətimiz buna artıq öyrəşib. Bu il idmançılarımız tərəfindən dünya, Avropa çempionatlarında və digər beynəlxalq yarışlarda 800-ə yaxın medal, o cümlədən 263 qızıl medal əldə edilmişdir. Bu, böyük nəticədir, böyük qələbədir. Bu qələbə münasibətilə idmançılarımızı təbrik edirəm.

Bu qələbələr, sadəcə olaraq, idman qələbələri deyil. Çünki hər bir belə möhtəşəm qələbə cəmiyyətimizin vətənpərvərlik ruhunu artırır, Azərbaycanı dünyada güclü idman ölkəsi kimi tanıdır, Azərbaycanı təbliğ edir. Bu qələbələr gəncləri idman bölmələrinə aparır, idmanın kütləviliyini təmin edir. Yəni, idman qələbələri, idmançılarımızın uğurları çox böyük məna daşıyır. Buna görə biz idmançılarımıza minnətdarıq. Eyni zamanda, onu da böyük məmnunluq hissi ilə elə qeyd etməliyəm ki, bizim idmançılarımızın mütləq əksəriyyəti həyatda da, məişətdə də gözəl nümunə göstərir, vətənpərvərlik, ləyaqət nümunəsi göstərir. Əlbəttə ki, idmançılara cəmiyyətdə olan hörmət çox yüksək səviyyədədir. Uşaqlar, yeniyetmələr bizim çempionlarımıza oxşamaq istəyirlər. Bu da təbiidir. Mən əminəm ki, bundan sonra da idmançılarımız bizi, xalqımızı sevindirəcəklər.

Gözəl gənc nəsil yetişir. Gənclər arasında keçirilmiş beynəlxalq yarışlarda da biz gözəl nəticələr göstəririk. Gənc nəslin yetişməsi nəticəsində biz bu uğurlara əldə edirik. Biz Rio Olimpiya Oyunlarında 18 medal qazanmışıq. Bu medalları qazanan həmin o gənclərdir ki, beş-altı il bundan əvvəl yeniyetmələrin yarışlarında iştirak edirdilər. Biz medalların sayına görə Rioda 14-cü yerə qalxa bilmişdik. Bu, tarixi nailiyyətdir. Bunu təkrarlamaq çox çətin olacaq. Onu da qeyd etməliyəm ki, növbəti Yay Olimpiya Oyunlarına hazırlıq gələn il həlledici mərhələyə qədəm qoyacaq. Əlbəttə, biz çox ciddi hazırlaşmalıyıq ki, ölkəmizi Olimpiya Oyunlarında ləyaqətlə təmsil edək.

Bilirsiniz ki, idman infrastrukturunun yaradılması işində böyük uğurlar əldə edilib. Ancaq rayonlarda 44 Olimpiya İdman Mərkəzi tikilib və fəaliyyət göstərir. Bu il bir mərkəz tikilib, gələn il isə üç Olimpiya İdman Mərkəzinin tikintisi nəzərdə tutulur. Beləliklə, onların sayı 47-yə çatacaqdır.

Ölkəmizdə beynəlxalq idman yarışlarının keçirilməsi ənənəyə çevrilib. Əlbəttə ki, biz Avropa, İslam Həmrəyliyi oyunlarını xatırlaya bilərik. Bu il ölkəmizdə dünya, Avropa çempionatları keçirilmişdir. Formula 1 yarışı üç ildir Azərbaycanda, Bakıda keçirilir. Bu il və keçən il ümumi rəyə və bu məsələ ilə məşğul olan ictimai qurumların fikrinə görə, bizim yarışımız - Bakı yarışı ən gözəl yarış olmuşdur. Bu da çox gözəl hadisədir. Çünki bu da göstərir ki, bizim qəbul edilmiş hər bir qərarımız düzgün qərardır, gözəl nəticə verir.

Bilirsiniz ki, ölkəmizə turistlərin axını davam edir. Turistlərin sayı 2016-cı ildə 22 faiz, 2017-ci ildə 20 faiz, bu ilin 11 ayında 6 faizdən çox artmışdır. Düzdür, əvvəlki illərə nisbətdə artım bir qədər aşağıdır, ancaq biz bilməliyik ki, baza artır. Yəni, hər il bundan sonrakı ildə bu yüksək artımı əldə etmək daha çətin olacaq. Ancaq bu istiqamətdə də çox ciddi işlər aparılır. Deyə bilərəm ki, şəhərin mərkəzində keçirilən Formula 1 yarışının turistlərin cəlb edilməsində xüsusilə çox böyük rolu, payı var.

Azərbaycanın idman sahəsində uğurları beynəlxalq idman qurumları tərəfindən yüksək qiymətləndirilir. Həm Beynəlxalq Olimpiya Komitəsi, həm də Avropa Olimpiya Komitəsi bizim fəaliyyətimizə çox yüksək qiymət verir. Gələn il Bakıda Avropa Gənclər Olimpiya Festivalı keçiriləcəkdir. Bu, gənclər arasında Avropa Oyunlarının bir növüdür. Biz bu yarışa da ciddi hazırlaşırıq. Bizdə əldə edilmiş təcrübə deməyə əsas verir ki, bu yarış yüksək səviyyədə keçiriləcək.

Gələn il tarixdə ilk dəfə olaraq, Bakıda futbol üzrə Avropa Liqasının final görüşü keçiriləcəkdir. Bu görüşü Bakıda keçirmək o qədər də asan məsələ deyil. Bir çox şəhərlər bu istiqamətdə mübarizə aparır. Məhz ölkəmizin ümumi inkişafı, mövcud olan infrastruktur, idman obyektləri, gözəl Olimpiya Stadionu, gözəl otellər, təhlükəsizlik, xalqımızın qonaqpərvərliyi və digər amillər bu qərarın verilməsində rol oynayıb.

Yəni, biz inamla irəliyə gedirik. İdman cəmiyyətimizin ayrılmaz hissəsidir. İdmançılara hər zaman yüksək qiymət verilir, diqqət göstərilir. Mən 21 ildir Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti kimi həmişə çalışmışam ki, idmançılara qayğı, diqqət göstərim, onların problemlərini həll edim, onların gözəl çıxışları üçün şərait yaradım. Əlbəttə ki, hər bir nəticə, hər bir uğur gərək qiymətləndirilsin. Ənənəvi olaraq, biz ilin sonunda idmançıları yüksək dövlət mükafatları ilə, pul mükafatları ilə və mənzillərlə mükafatlandırırıq. Bu il də bu mükafatlar verilir, o cümlədən görkəmli idman nümayəndələrimizə 25 mənzil veriləcəkdir.

Mən bir daha Azərbaycan idmançılarını əldə edilmiş uğurlar münasibətilə təbrik edirəm. Əziz idmançılar, sizə yeni qələbələr, uğurlar arzulayıram. Sağ olun.

# Prezident İlham Əliyev Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 12-də Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı, ilk növbədə, Rusiya ilə NATO yüksək hərbi rəhbərliyi arasında görüşün keçirilməsi üçün Bakının seçilməsinə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev qeyd etdi ki, bu, bizim ölkəyə hörmətin, etimadın göstəricisidir və bir daha Azərbaycanın dünyada sabitliyin və təhlükəsizliyin möhkəmlənməsinə xidmət edən mühüm beynəlxalq tədbirlərin müntəzəm olaraq keçirildiyi məkana çevrildiyini göstərir və Azərbaycan bunu yüksək qiymətləndirir. Dövlətimizin başçısı Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətinin, eyni zamanda, Azərbaycan-Rusiya əlaqələri ilə bağlı məsələlərin müzakirəsi üçün də yaxşı imkan yaratdığını dedi. İkitərəfli münasibətlərimizin bütün sahələrdə, o cümlədən hərbi sahədə çox uğurlu və dinamik şəkildə inkişaf etdiyini deyən Prezident İlham Əliyev yüksək səviyyədə keçirilən görüşlərin əməkdaşlığın genişləndirilməsində mühüm rol oynadığını bildirdi. Təkcə bu il Azərbaycan və Rusiya dövlət başçıları arasında çoxsaylı görüşlərin keçirildiyini vurğulayan Prezident İlham Əliyev son dəfə Sankt-Peterburqda Rusiya Prezidenti ilə təmaslarını məmnunluqla xatırladı. Dövlətimizin başçısı bu il, eyni zamanda, ölkələrimiz arasında xeyli sayda sazişlərin və sənədlərin imzalandığını vurğulayaraq, qarşılıqlı fəaliyyətin səviyyəsinin daha da yüksəldilməsi məqsədilə ölkələrimiz tərəfindən əldə olunmuş razılıqların icra edilməsinin önəmini qeyd etdi və buna nail olunduğunu bildirdi. Rusiya ilə Azərbaycanın dostluq münasibətlərinin tarixi sınaqlardan çıxdığını qeyd edən Prezident İlham Əliyev bu gün ölkələrimizin etibarlı tərəfdaş olduğunu, hərbi və hərbi-texniki sahələrdə əməkdaşlığın yüksək səviyyəyə qalxdığını dedi və Valeri Gerasimovun ölkəmizə səfərinin bu sahədə əlaqələrin daha da möhkəmləndirilməsi işinə xidmət edəcəyinə əminliyini bildirdi.

Xoş sözlərə və qəbula görə minnətdarlığını bildirən Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günündə dövlətimizin başçısı ilə görüşünü yüksək qiymətləndirdi. O, Ulu Öndərin və görkəmli oftalmoloq-alim, akademik Zərifə Əliyevanın məzarlarını ziyarət və xatirələrini ehtiramla yad edəcəklərini vurğuladı. NATO və ABŞ nümayəndələri ilə artıq neçənci dəfədir ki, Bakıda görüşdüklərini qeyd edən Valeri Gerasimov paytaxtımızın bunun üçün çox münasib bir məkan olduğunu və bu cür görüşlər üçün burada hər cür şəraitin yaradıldığını vurğuladı.

İkitərəfli münasibətlərə toxunan Rusiya Silahlı Qüvvələrinin Baş Qərargah rəisi Valeri Gerasimov əlaqələrimizin müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahədə uğurla inkişaf etdiyini bildirdi.

Söhbət zamanı ikitərəfli münasibətlərin perspektivləri ətrafında fikir mübadiləsi aparıldı.

# Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı işə başlayıb

Dekabrın 14-də Bakıda Parlamentlərarası İttifaqın Gənc Parlament Üzvlərinin 5-ci Qlobal Konfransı işə başlayıb.

AZƏRTAC xəbər verir ki, konfransın açılışında çıxış edən Milli Məclisin sədri Oqtay Əsədov əvvəlcə Parlamentlərarası İttifaqın bu mötəbər toplantısı münasibətilə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin təbriklərini və xoş arzularını iştirakçılara çatdırıb. Sədr deyib ki, ötən yüzilliyin sonlarında bəşəriyyətin mövcudluğunu qorxu altına alan qlobal təhlükələrin hamılıqla dərk edilməsi dünya sivilizasiyasının inkişafının xarakterini dəyişdirməyə yönələn beynəlxalq səylərin artmasına gətirib çıxarıb. Bu gün bir çox tədqiqatçılar dayanıqlı inkişaf prinsiplərinə keçidi sosial mühəndisliyin xüsusi bir metodu və "ekoloji politologiya" adlandırırlar. Söhbət qloballaşmanın və böhranlı halların mənfi nəticələrini aradan qaldırmağa yönələn siyasi fəaliyyətdən və ekoloji tarazlığa nail olmaq yolu ilə dayanıqlı və təhlükəsiz inkişafı təmin etməkdən gedir. Nəticə etibarilə, bütün bunlar indiki və gələcək nəsillər üçün daha etibarlı, ədalətli və humanist bir dünya qurulmasına gətirib çıxarmalıdır. "Bu baxımdan inanıram ki, konfransın sessiyalarında aparılacaq fikir mübadilələri və müzakirələr dayanıqlı inkişafın təmin edilməsində gənclərin, xüsusən gənc parlament üzvlərinin rolunun gücləndirilməsi yollarını müəyyən etməyə imkan verəcək", - deyə o əlavə edib.

# Müdafiə naziri NATO Müdafiə Kollecinin rəisi ilə görüşüb



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dekabrın 13-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov ölkəmizdə səfərdə olan NATO Müdafiə Kollecinin rəisi general-leytenant Kris Uaytkross ilə görüşüb.

Qonağı salamlayan Müdafiə naziri regiondakı hərbi-siyasi vəziyyət, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verib.

General-polkovnik Zakir Həsənov Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıq proqramları, xüsusi ilə hərbi təhsil sahəsində həyata keçirilən fəaliyyətlərin vacibliyini vurğulayaraq bu istiqamətdə göstərilən dəstəyə görə öz təşəkkürünü bildirib.

General-leytenant K.Uaytkross Müdafiə Kollecinin fəaliyyəti barədə ətraflı məlumat verərək Azərbaycana səfərdən məmnun qaldığını, göstərilən qonaqpərvərliyə, müxtəlif qurumlarda görüşlərin təşkilinə görə bütün heyət üzvləri adından Müdafiə nazirinə minnətdarlığını bildirib.

Qonaq Müdafiə Kollecinin təşkil etdiyi mövcud kursların vacibliyini qeyd edərək bu cür səfərlərin qarşılıqlı təcrübə mübadiləsi baxımından əhəmiyyətli olduğunu da diqqətə çatdırıb.



# Müdafiə naziri ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi ilə görüşüb

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsi Anjey Kaspşik ilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, görüşdə qoşunların təmas xəttindəki hazırkı vəziyyət, keçirilən monitorinqlərin nəticələri və münaqişənin həllinə dair fikir mübadiləsi aparılıb.

# "Azərbaycanın QDİƏT-ə sədrliyi müddətində bir sıra məsələlər həll edilib"

Azərbaycanın Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatına sədrliyi müddətində bir sıra məsələlər həll edilib.

AZƏRTAC xəbər verir ki, bunu jurnalistlərə açıqlamasında Türkiyənin Xarici İşlər naziri Mövlud Çavuşoğlu bildirib.

Azərbaycanı beynəlxalq quruma uğurlu sədrliyi münasibətilə təbrik edən nazir vurğulayıb ki, bu qurumda islahatlar aparılmalı və mövcud problemlər həll olunmalıdır. Onun sözlərinə görə, təşkilatda Azərbaycanın səyləri nəticəsində əhəmiyyətli irəliləyişlərə nail olunub.

AZƏRBAYCAN ORDUSU

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq

*Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovun tapşırığına əsasən, dekabrın 12-də Azərbaycan Ordusunun bütün qoşun növlərində, Əlahiddə Ümumqoşun Orduda, hərbi birlik və birləşmələrdə, xüsusi təyinatlı təhsil müəssisələrində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü münasibətilə bir sıra tədbirlər keçirilib.*



Şəxsi heyətin və ictimaiyyət nümayəndələrinin də iştirak etdiyi tədbirlərdə əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və respublikamızın suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olan Vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Azərbaycanın Dövlət himni səsləndirilib.

Tədbirlərdə çıxış edənlər Ulu Öndərimizin şərəfli ömür yolundan, Vətənimiz qarşısında tarixi xidmətlərindən danışıblar. Qeyd edilib ki, Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi illərdə onun uzaqgörən daxili və xarici siyasəti nəticəsində ölkəmizin nüfuzu artıb, hərtərəfli inkişafa nail olunub, müstəqilliyimizin əbədi və dönməz olması təmin edilib. Bu gün digər sahələrdə olduğu kimi, ordu quruculuğu sahəsində də Ulu Öndərin siyasi xətti Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir.

Çıxışlardan sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin, Gəncə Qarnizonu Zabitlər Evinin və rayon mədəniyyət şöbələrinin yaradıcı kollektivləri tərəfindən ədəbi-bədii kompozisiyalar təqdim edilib.

Tədbirlərdə ulu öndər Heydər Əliyevin şərəfli həyat və fəaliyyəti haqqında sənədli filmlərə də baxılıb.

* * *

Naxçıvan Qarnizonunun şəxsi heyətinin iştirakı ilə Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində "Heydər Əliyev və Azərbaycan Ordusu" mövzusunda keçirilən anım tədbirində ümummilli lider Heydər Əliyevin Vətənimizə həsr etdiyi mənalı həyat yolundan danışıldı. Tədbirdə Əlahiddə Ümumqoşun Ordunun zabitləri Naib Cəfərov, Zaur Həmidov və Naxçıvan Qarnizonu tam orta məktəbinin direktoru, Azərbaycan Respublikasının əməkdar müəllimi Natiq Əhmədov çıxış edərək bildirdilər ki, Azərbaycanın zəngin dövlətçilik tarixində güclü, mütəşəkkil, peşəkar və yüksək döyüş hazırlığına malik ordunun yaradılması, formalaşdırılması və inkişafı ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır. Güclü siyasi iradəyə, yüksək sərkərdəlik məharətinə malik dahi şəxsiyyətin rəhbərliyi ilə milli ordumuzun yaradılmasına ötən əsrin 90-cı illərində Naxçıvanda başlanılıb. Bu gün ordumuzun şəxsi heyəti torpaqlarımızın müdafiəsində cəsarətlə dayanır, ümummilli lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq müstəqilliyimizin qorunmasında və ölkəmizin ərazi bütövlüyünün təmin olunmasında öz vəzifələrini şərəflə yerinə yetirir.

Heydər Əliyev adına Hərbi Liseydə də keçirilən anım tədbirində əvvəlcə ümummilli lider Heydər Əliyevin liseyin həyətində ucaldılmış büstü önünə tər güllər düzüldü, Ulu Öndərin xatirəsi yad edildi. Liseyin rəisi general-mayor Elman Orucov Heydər Əliyev adına Hərbi Liseyin yaranması və keçdiyi inkişaf yolundan danışaraq bildirildi ki, Hərbi lisey Ümummilli Liderimizin adına layiq, nümunəvi təhsil müəssisəsi kimi Silahlı Qüvvələrimizin savadlı, bacarıqlı, vətənpərvər zabitlərlə komplektləşdirilməsində üzərinə düşən vəzifələri uğurla yerinə yetirir.

İllər keçəcək, bu liseyin kursantları ulu öndər Heydər Əliyevi zabit olaraq, əsgərlər əhatəsində də yad edəcəklər. Böyük tarixi şəxsiyyət Heydər Əliyev heç zaman unudulmayacaq.

Naxçıvan Qarnizonu tam orta məktəbində də anım tədbiri keçirildi. Müəllimlər Ümummilli Liderimizin Azərbaycan təhsilinin inkişafında xidmətlərindən danışdı, şagirdlərin ifasında ədəbi-bədii kompozisiya göstərildi.

* * *

"N" hərbi hissəsində ulu öndər Heydər Əliyevin əbədiyyətə qovuşmasının 15-ci ildönümünə həsr olunmuş anım tədbiri keçirildi. Tədbir iştirakçıları ilk öncə ümummilli lider Heydər Əliyevin hərbi hissədə ucaldılan abidəsini ziyarət etdilər. Polkovnik İlqar Lətifov qarovulun müşayiəti ilə ulu öndər Heydər Əliyevin abidəsi önünə əklil qoydu.

Tədbirin rəsmi hissəsi hərbi hissənin əsgər klubunda baş tutdu. Keçirilən tədbirdə hərbi qulluqçular, ictimaiyyət nümayəndələri və Abşeron rayon Əfqan Qadaşov adına Pirəküşkül qəsəbə tam orta məktəbinin müəllim-şagird heyəti iştirak etdi.



Polkovnik Mehman Kərimov ümummilli lider Heydər Əliyevin həyat və yaradıcılığı ilə bağlı tədbir iştirakçılarını məlumatlandırdı. Zabit bildirdi ki, siyasi hərc-mərclik dövründə ümummilli lider Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə gəlməsi xaotik vəziyyətdə olan Azərbaycanımızı parçalanmaq təhlükəsindən xilas etdi. Prezident olduğu dövrlərdə ulu öndər Heydər Əliyevin apardığı məqsədyönlü islahatlar onun uzaqgörən siyasətçi olduğunun bariz nümunəsi idi. Polkovnik M.Kərimov, həmçinin müasir ordu quruculuğunun Ulu Öndərin adı ilə bağlı olduğunu vurğuladı. Qeyd etdi ki, Azərbaycan Ordusunun əksər generallarının, zabitlərinin təhsil aldığı Cəmşid Naxçıvanski adına Hərbi Liseyin əsası 1971-ci ildə Əbədiyaşar Komandan tərəfindən qoyulub. Horadiz qələbəsinin ümummilli lider Heydər Əliyevin dövründə qazanıldığından bəhs edən zabit döyüşlərin getdiyi vaxtda dahi şəxsiyyətin hər zaman vətənpərvər oğullarımızın yanında olduğunu da tədbir iştirakçılarının diqqətinə çatdırdı. Zabit uğurlu Horadiz əməliyyatının davamı kimi, Azərbaycan Ordusunun Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında qazandığı aprel qələbəsi, Günnüt zəfəri barədə də qonaqları məlumatlandırdı.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova dahi şəxsiyyət Heydər Əliyevin dövlətçilik sütunlarımızı möhkəmləndirdiyini bildirdi. Eyni zamanda ulu öndər Heydər Əliyevin hakimiyyətdə olarkən yerli sənətkarlarımıza göstərdiyi diqqət və qayğıdan da danışdı.

* * *

12 dekabr... 15 il keçsə də unudulmur, unudulmayacaq dahi Heydər Əliyev - müasir Azərbaycan dövlətçiliyinin memarı, qurucusu, müstəqilliyimizin xilaskarı, türk dünyasının böyük oğlu.

Azərbaycan Hərb Tarixi Muzeyində Ulu Öndərə həsr olunmuş "Heydər Əliyev dahi xilaskar və dövlət qurucusu" adlı tədbir keçirildi.

Tədbirdə Müdafiə Nazirliyinin idarə və müəssisələrinin, hərbi hissələrin, kütləvi informasiya vasitələrinin və ictimaiyyətin nümayəndələri iştirak etdilər.

Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə "Heydər Əliyev: böyük dövlət xadimi, siyasət nəhəngi, tarixi və əfsanəvi şəxsiyyət" adlı məruzəsində bildirdi ki, xalqımızın və dövlətimizin tarixində özünə əbədiyyət abidəsi ucaltmış, ölkəsi, xalqı üçün tarixi əhəmiyyətli işlər görmüş ümummilli liderimiz Heydər Əliyevin fəaliyyətinin hər səhifəsi Azərbaycan tarixinin yüksəliş mərhələləri ilə üst-üstə düşür. "Bu ömür xalqa, millətə, dövlətə xidmət etmənin müqayisəedilməz örnəyidir. Ulu Öndərin son dərəcə zəngin və çoxşaxəli tarixi fəaliyyətinin istiqamətlərindən biri də onun hərb tarixi ilə bağlı əvəzsiz fəaliyyətidir. Dahi tarixi şəxsiyyət hələ sovetlər dövründəki hakimiyyəti zamanı xalqımız üçün taleəhəmiyyətli işlər görmüşdür. O illərdə SSRİ ordusunun sıralarında hərbi xidmətə çağırılan azərbaycanlı gənclər bir sıra hərbi nailiyyətlər qazansalar da, milli hərbi kadrların yetərli olmaması Ulu Öndəri çox ciddi düşündürürdü. Böyük tarixi şəxsiyyət bu məsələni də uğurla həll etdi."



(Ardı 5-ci səhifədə)

# Ulu öndər Heydər Əliyevin əziz xatirəsi qəlblərdə daim yaşayacaq

(Əvvəli 4-cü səhifədə)




Azərbaycanın dövlət müstəqilliyi bərpa edildikdən sonra ölkədə yaranmış mürəkkəb sosial-iqtisadi və ictimai-siyasi vəziyyət haqqında geniş məlumat verən muzey rəisi qeyd etdi ki, erməni separatizminin gücləndiyi bir zamanda xalqın iradəsi və təkidli tələbi ilə hakimiyyətə qayıdan Ulu Öndər qısa bir zamanda ordu quruculuğu istiqamətində geniş fəaliyyətə başladı, güclü nizami ordu yaratmaq üçün təcili tədbir gördü. "Bütün bunların nəticəsi olaraq Azərbaycan Ordusu düşmənin respublikanın içərilərinə doğru hücumunu dayandırdı, əks-hücuma keçərək bir sıra əraziləri, o cümlədən Horadizi işğaldan azad etdi.

Ulu Öndər tərəfindən əsası qoyulan Azərbaycan Ordusu bu gün Ali Baş Komandan İlham Əliyevin xüsusi diqqət və qayğısı ilə dünyanın ən qabaqcıl orduları sırasındadır."

Ümummilli Liderin anım gününə həsr olunmuş "Unudulmaz" sənədli filminin yaradıcısı, filologiya üzrə fəlsəfə doktoru Elnur Niftəliyev qeyd etdi ki, istedadlı insanlar, böyük şəxsiyyətlər üçün zaman və məkan məhdudiyyəti yoxdur. "Onlar heç bir zamana və məkana sığmırlar. Zaman bir həqiqəti də təsdiq edir ki, böyük şəxsiyyətlərin mənalı ömür yolu həmişə örnək olub. Heydər Əliyevin ömür yolu Azərbaycanın tarixidir".

Sonda "Unudulmaz" sənədli filmi və sərgi nümayiş olundu.

* * *



Gəncə Qarnizonu Zabitlər Evinin təşkilatçılığı ilə xalqımızın ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində tədbir keçirildi.

Tədbiri giriş sözü ilə açan hərbi hissənin zabiti Eşqin Dadaşov ulu öndər Heydər Əliyevin həyat və fəaliyyəti, ordu quruculuğu haqqında iştirakçılara geniş məlumat verdi. Bildirdi ki, 15 il əvvəl müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, dünya şöhrətli siyasi xadim, ümummilli lider Heydər Əliyev əbədiyyətə qovuşdu. "Xalqımızın yaddaşına əbədi həkk olunan bu dahi insanın adı Azərbaycan xalqının rəmzinə, əməlləri isə hünər timsalına çevrilib. Bəli, o, bütün ömrünü Azərbaycanın işıqlı gələcəyinə həsr etmişdir. İndi gündən-günə daha da güclənən, inkişaf edən müstəqil Azərbaycan dövlətinin qazandığı hər bir uğur Heydər Əliyevin ömrünün davamıdır. İllər ötdükcə biz Heydər Əliyev dühasının müstəqil Azərbaycanın tarixindəki əvəzsiz rolunu daha dərindən dərk edir, bu dahi şəxsiyyətin siyasi əzəməti, beynəlxalq nüfuzu barədə fikir yürütməyə mənəvi ehtiyac duyuruq. Çünki bu gün Azərbaycanın qüdrətli dövlətə çevrilməsi, dinamik sosial-iqtisadi inkişafı, dünya birliyində öz layiqli yerini daha da möhkəmləndirməsi məhz Heydər Əliyevin ideyalarının yaşamasının, siyasi kursunun uğurla davam etdirilməsinin nəticəsidir. "Mən ömrümün qalan hissəsini də xalqıma bağışlayıram", - deyən Heydər Əliyev həyatının mənasını yalnız xalqına xidmətdə görüb, ömrünü onun firavan gələcəyinə həsr edib. Bu gün Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı möhtəşəm uğurlar ulu öndər Heydər Əliyevin müəllifi olduğu dinamik inkişaf strategiyasının bəhrəsidir. Ümummilli Liderimiz respublikamızda, hər bir sahədə olduğu kimi, ordu quruculuğu sahəsində də mühüm tədbirlərin həyata keçirilməsinə güclü təkan verdi, cəbhədə vəziyyətin müsbət istiqamətdə inkişafına şərait yaratdı. Bu dövrdən etibarən ölkədəki Silahlı Qüvvələr dövlətin tam nəzarətinə keçdi. Azərbaycan Ordusu bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən orduları ilə bir sırada dayanır. Bunu beynəlxalq təşkilatlar da təsdiq edir. Bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin əməyinin bəhrəsidir. Prezident, Ali Baş Komandan İlham Əliyev Ulu Öndərin ideyalarını layiqincə yaşadaraq, ordu quruculuğu sahəsində öz səylərini daha da artıraraq Azərbaycan Ordusunun müasir hərbi texnika ilə təchiz edilməsinə, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordu yaradılmasına nail olub".

Gəncə Qarnizonu Zabitlər Evinin əməkdaşı Samirə Bayramova iştirakçılara Ulu Öndərin böyük dövlətçilik təcrübəsi, geniş dünyagörüşü, Azərbaycanın rifahı naminə gördüyü işlər, beynəlxalq aləmdə ölkəmizin mövqeyinin möhkəmlənməsi sahəsində fəaliyyəti haqqında geniş məlumat verdi. Natiq bildirdi ki, ulu öndər Heydər Əliyev hakimiyyətinin hər iki dövründə xalqına xidməti fəaliyyətinin əsas istiqaməti seçib. "Azərbaycanı qüdrətli, zəngin dövlətə çevirmək, xalqın rifah halını daha da yaxşılaşdırmaq Ümummilli Liderin əsas amalı idi. Bu dahi insan Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, ümummilli lider və xalqın məhəbbətini qazanan Öndər kimi qalıbdır. Xalqımızın tarixi taleyində, mənəvi, siyasi və ictimai həyatında, dövlət quruculuğunda misilsiz xidmətləri olan böyük tarixi şəxsiyyət Heydər Əliyev ən böyük azərbaycanlı idi. Ölkəmiz bu siyasətin uğurlarını hiss edir və onun siyasi irsindən faydalanır. Ulu Öndərin layiqli siyasi varisi, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bu gün Ümummilli Liderimizin siyasi kursunu uğurla davam etdirir. Prezidentimizin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə aparılan uğurlu islahatlar, əldə olunan nəticələr xalqın sabaha olan inamını qat-qat artırıb, Heydər Əliyev yolunun layiqincə davam etdiriləcəyinə, memarı olduğu müstəqil Azərbaycanın etibarlı əllərdə olduğuna möhkəm əminlik yaradıbdır".

* * *

Hər bir kəs ilk növbədə öz xalqı, Vətəni ilə tanınır. Elə nadir insanlar da var ki, onlar mənsub olduğu xalqı, Vətəni tanıdır, şöhrətləndirirlər. Belə insanlar seçilmiş şəxsiyyətlər, xüsusi missiyası olan liderlərdir. Ümummilli liderimiz Heydər Əliyev də məhz belə şəxsiyyətlərdəndir.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evi ümummilli lider Heydər Əliyevin anım günü ilə əlaqədar "N" hərbi hissəsində tədbir keçirdi.

Tədbir ulu öndər Heydər Əliyevin "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" kəlamının səsləndirilməsiylə başladı.

Mərkəzi Zabitlər Evinin mədəni-bədii iş bölməsinin müdiri Gülxar Məmmədova bildirdi ki, XX əsr Azərbaycan tarixinin ən parlaq siması olan ümummilli lider Heydər Əliyev dövlət idarəçiliyi sahəsində təcrübəli siyasət adamı və əvəzolunmaz şəxsiyyət idi. "Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illərdə uzaqgörən daxili və xarici siyasəti ilə ölkənin nüfuzunu artıraraq, hərtərəfli inkişafına nail olub, müstəqilliyini əbədi və dönməz edib. Azərbaycan Heydər Əliyevin uğurlu siyasəti sayəsində dünyada tanınan nüfuzlu bir dövlətə çevrilib. 1993-cü ildə müstəqil Azərbaycan Respublikasının Prezidenti seçilən Heydər Əliyev siyasət aləmində çox güclü, səriştəli və təcrübəli dövlət xadimi kimi qısa bir müddət ərzində xarici siyasət sahəsində böyük dönüş yaratdı. Dünyanın aparıcı dövlətləri, inkişaf etmiş ölkələri, beynəlxalq təşkilatlar Azərbaycana ciddi diqqət yetirməyə başladılar. O, Qərbə inteqrasiya yolunu tutdu. Ən çətin anlarda belə Heydər Əliyev yenilməz siyasi iradə nümayiş etdirdi, milli dövlətçiliyin, milli mənafelərin ifadəçisi kimi anti-azərbaycan, antimilli qüvvələrin qarşısında sipər oldu, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərlərinin çəkilişi məhz bu böyük insanın qətiyyətli mövqeyinin, uzaqgörənliyinin nəticəsi kimi reallığa çevrildi.

Heydər Əliyev uzaqgörən və ağıllı siyasətçi kimi nəyi nə zaman deməyi, hansı addımı nə vaxt atmağı zərgər dəqiqliyi ilə bacarırdı. Ulu Öndər qeyd edirdi ki, biz nazik sapın üstü ilə gedirik. "Odur ki, biz gərək bu siyasəti o qədər ağılla, o qədər məharətlə aparaq ki, Azərbaycanın milli mənafeləri müdafiə olunsun".

Mayor Rüstəm Əliyev qeyd etdi ki, Ulu Öndərin son dərəcə zəngin və çoxşaxəli tarixi fəaliyyətinin istiqamətlərindən biri də onun hərb tarixi ilə bağlılığı və bu sahədəki əvəzsiz xidmətləridir. "Hələ sovetlər dövründəki hakimiyyəti zamanı Azərbaycanda misli görünməmiş uğurlar əldə edib və xalqımız üçün taleəhəmiyyətli işlər görüb. SSRİ ordusunun sıralarında hərbi xidmətə çağırılan azərbaycanlı gənclər bir sıra hərbi nailiyyətlər qazansalar da, milli hərbi kadrların yetərli dərəcədə olmaması Ulu Öndəri çox ciddi düşündürürdü. Məhz azərbaycanlıların yüksək hərbi vəzifələrə irəli çəkilməsi yolunda süni maneələr yaradıldığı bir vaxtda Ulu Öndər 1971-ci ilin aprelində gənclərimizin ali hərbi məktəblərə hazırlanması barədə xüsusi sərəncam imzaladı. Həmin ilin iyunun 20-də əsas baza rolunu oynayacaq ixtisaslaşmış hərbi məktəbə xalqımızın qüdrətli sərkərdəsi Cəmşid Naxçıvanskinin adı verildi...".

Zabit Ümummilli Liderin müstəqil və güclü bir dövlət yaratmasından, Prezident, Ali Baş Komandan İlham Əliyevin Ulu Öndərin ideyalarını layiqincə yerinə yetirməsindən, Azərbaycan Ordusunun bu gün dünyanın ən peşəkar, NATO standartlarına cavab verən orduları ilə bir sırada dayanmasından qürurla söz açdı. Aprel zəfərini, Günnüt əməliyyatını bunun bariz nümunəsi adlandırdı.



**"Azərbaycan Ordusu"**

# Müdafiə naziri komanda idarəetmə məntəqəsinin açılışında iştirak edib

*Dekabrın 14-də Müdafiə naziri general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti nazirliyin baş idarələrindən birinin istifadəyə verilən komanda idarəetmə məntəqəsinin açılışında iştirak ediblər.*





Müdafiə nazirinə hərbi obyektin təyinatı və fəaliyyəti barədə məlumat verilərək bildirilib ki, komanda məntəqəsi tabelikdə olan bölmələrin operativ idarə olunması və qərarların qəbul edilməsi üçün yuxarı komandanlığa məruzələrin hazırlanmasını həyata keçirir.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, idarəetmə məntəqəsinin bütün xidməti və inzibati otaqları yeni texniki avadanlıqla təchiz edilib, mebel və kommunikasiya xətləri ilə təmin olunub. Ərazidə abadlıq işləri aparılıb, ağac və gül kolları əkilib, asfalt örtüyü salınıb, habelə binaya mərkəzləşdirilmiş istilik sistemi, elektrik, su və qaz xətti çəkilib.

Müdafiə naziri bölmələrin fasiləsiz, sabit, operativ və gizli idarə olunması məsələsinin daim diqqət mərkəzində saxlanılmasını bir daha xatırladaraq məntəqənin imkanlarının genişləndirilməsi ilə əlaqədar müvafiq göstərişlər verib.

# Azərbaycan ilə Rusiya arasında hərbi-texniki əməkdaşlığın perspektivləri müzakirə olunub

*Dekabrın 12-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov Rusiya Federasiyası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi ordu generalı Valeri Gerasimovun rəhbərlik etdiyi nümayəndə heyətilə görüşüb.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, əvvəlcə ordu generalı V.Gerasimov protokola uyğun olaraq "Şərəf kitabı"nı imzalayıb.

Qonaqları salamlayan general-polkovnik N.Sadıkov iki ölkə arasında əməkdaşlığın dostluq münasibətləri və qarşılıqlı inam üzərində qurulduğunu, bu əlaqələrin daim inkişaf etdiyini və son illərdə strateji tərəfdaşlıq səviyyəsinədək yüksəldiyini qeyd edib.

Bölgədəki hərbi-siyasi vəziyyətə və təhlükəsizlik məsələsinə toxunan general-polkovnik N.Sadıkov Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin regional sabitliyə əsas təhlükə yaratdığını, onun beynəlxalq hüququn norma və prinsipləri əsasında həllinə nail olunmasının vacibliyini vurğulayıb.

Ordu generalı V.Gerasimov da əlaqələrimizin tarixi köklərə əsaslandığını, Rusiyanın Azərbaycanın vacib strateji tərəfdaşı olduğunu qeyd edərək yüksək



hərbi nümayəndələrin qarşılıqlı görüşlərinin təşkili və keçirilməsinin ikitərəfli münasibətlərin, eləcə də hərbi və hərbi-texniki sahədə əməkdaşlığın genişlənməsi baxımından zəruriliyini bir daha qeyd edib.

Sonra tərəflər hərbi sahədə əməkdaşlığın mövcud vəziyyəti, hərbi-texniki və hərbi təhsil sahələrində əlaqələrin inkişaf perspektivlərini müzakirə edib və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

Sonda ordu generalı V.Gerasimov NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı general Körtis Skaparotti ilə ikitərəfli görüşün Bakıda təşkil edilməsi və yüksək qonaqpərvərliyə görə Azərbaycan dövlətinin rəhbərliyinə dərin minnətdarlığını bildirib.

# Ermənistanda ictimai-siyasi vəziyyət gərgin olaraq qalır

Ermənistanda növbədənkənar parlament seçkiləri yekunlaşsa da gərginlik azalmır.

AZƏRTAC xəbər verir ki, siyasi analitiklər seçkidə qalib gələn Nikol Paşinyanın tezliklə devriləcəyini proqnozlaşdırırlar. Robert Koçaryanın tərəfdarları isə təşəbbüs qrupu yaradaraq aksiyalara hazırlaşırlar.

Ekspertlərin fikrincə, saxtalaşdırılmış seçkilər Paşinyan hakimiyyətinin Sarkisyan rejimindən fərqlənmədiyini göstərir. Ermənistanda növbədənkənar parlament seçkilərində qeydə alınan qanun pozuntuları göstərir ki, Nikol Paşinyan qalib gəlmək üçün seçkilərin saxtalaşdırılması yolunu tutub. O, bu seçkilərə hazırlaşarkən fikirləşirdi ki, xalq onun çıxışlarına və verdiyi vədlərə inanaraq səsverməde daha fəal olacaq. Amma bunun əksi baş verdi.

Ermənistan mətbuatı yazır ki, səsverməyə gedənlərin əksəriyyəti yaşlı nəslin nümayəndələri idi. Gənclər isə heç bir fəallıq göstərmədilər. Nəticədə Ermənistan tarixində görünməmiş seçki oldu. İndiyə qədər keçirilən seçkilərin heç birində bu qədər aşağı seçici fəallığı olmayıb.

"İnqilabların təcrübəsi Paşinyanın devriləcəyini göstərir".

Bu fikri tanınmış analitik Lourens Broers "Euronews"a müsahibəsində bildirib. Onun sözlərinə görə, Nikol Paşinyanın hazırda üzləşdiyi başlıca problem "məxməri" adlandırılan inqilabı uzunmüddətli mirasa çevirməkdir. Bu isə Paşinyanın diktator olmasını təmin edəcək. Analitik qeyd edir ki, Paşinyan özünün şəxsi populyarlığından həzz alır və qarşısındakıların hamısını silib-süpürərək ölkədə yeganə dominant fiqur olmaq uğrunda mübarizə aparır. Onun fikrincə, Ermənistan uzun illərdir ki, bir sıra sahələrdə genişmiqyaslı islahatlara ehtiyac duyur. Bu mənada, çətin ki, Paşinyan Ermənistanda təkhakimiyyətliliyə nail olduqdan sonra parlamentdə hökumətin səhv qərarlarını mühakimə edəcək sağlam müxalifət formalaşsın. Siravi vətəndaşlar avtoritar və oliqarx rejimlərdən canını qurtarmaqda niyyətlidir. Bu isə hələ uzun müddət mümkün olmayacaq. Ermənistanın həbs olunan ikinci prezidenti Robert Koçaryanın müdafiəçiləri mitinq və piketlərə hazırlaşırlar. Bu barədə "Prezidentə azadlıq" təşəbbüs qrupunun yaydığı bəyanatda deyilir. "Biz ədalətsizliyə qarşı öz qəti səsimizi qaldırmağa hazırlaşırıq. 11 dekabrı mübarizə mərhələsinin başlanğıcı elan edirik və hamını bizə qoşulmağa çağırırıq", - deyə bəyanatda bildirilir.

## Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

**13 dekabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan da istifadə etməklə sutka ərzində atəşkəs rejimini 23 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam kəndində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Sarıcalı, Novruzlu, Mərzili, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Aşağı Seyidəhmədli, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy və Tərtər rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

**14 dekabr 2018-ci il.**

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 26 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Şıxlar, Sarıcalı, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qərvənd, Qaraxanbəyli, Qorqan, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Müdafiə Nazirliyinin şəxsi heyəti Ümummilli Liderin xatirəsini yad etdi

*Dekabrın 12-də Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin anım günü ilə əlaqədar Müdafiə Nazirliyinin rəhbərliyi və şəxsi heyəti Fəxri xiyabanı ziyarət etdilər.*



Ümummilli lider Heydər Əliyev dünya miqyasında böyüklüyü etiraf edilən və qəbul olunan şəxsiyyət idi. XX əsrin 90-cı illərində - Azərbaycanın beynəlxalq arenaya müstəqil dövlət kimi çıxdığı ilk vaxtlarda ölkəmizi Heydər Əliyevə görə tanıyırdılar. Onun parlaq dühası və iti zəkası sərhəd tanımır, Azərbaycanın hüdudlarını aşır. Azərbaycan dünya miqyasında layiq olduğu mərtəbəyə məhz Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilib.

Fəaliyyətinin hər dövründə zamanı əməlləri ilə zənginləşdirən ulu öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən güclü, möhtəşəm, qüdrətli müasir dövlətin və onun ordusunun yaradılması olub. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən Ümummilli Lider hər zaman milli dövlətçiliyi, vahid komandanlığa tabe olan nizami ordunun formalaşdırılmasını və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutub. O, xalqın öz Vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərindəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur.

Azərbaycan Ordusunun döyüş hazırlığının yüksək səviyyəyə çatdırılması müasir hərbi texnika ilə yanaşı, bu texnikanı idarə edə biləcək savadlı zabit korpusunun yaradılması beynəlxalq standartlara cavab verən hərbi təhsil sisteminin formalaşdırılması ordu quruculuğunda önəmli bir addım oldu. Nəticədə beynəlxalq təcrübəyə istinad edilməklə güclü, qüdrətli, məğlubedilməz Azərbaycan Ordusu formalaşdırıldı. Kursant və zabit heyətinin dünyanın ən qabaqcıl hərbi təhsil müəssisələrində hərb sənətinin sirlərinə yiyələnməsi ordumuzun peşəkarlıq səviyyəsinin yüksəlməsinə yol açdı. Dünyanın aparıcı 50 ordusu arasında yer tutan peşəkar Azərbaycan Ordusu müəyyən zaman kəsiyində aprel və Günnüt zəfərlərini qazandı.

Bu gün regionun ən qüdrətli ordusu olan Azərbaycan Ordusu dövlət sərhədlərimizi qorumaqla yanaşı, bir sıra ölkələrdə həyata keçirilən sülhməramlı əməliyyatlarda da iştirak edir. Ordu quruculuğunu Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev uğurla davam etdirir.

Bu gün tam əminliklə deyə bilərik ki, regionun ən qüdrətli ordusu - Azərbaycan Ordusu ölkəmizin ərazi bütövlüyünün bərpası, işğal altındakı torpaqlarımızın düşmən tapdağından azad edilməsi üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin əmrini dərhal və uğurla yerinə yetirməyə hazırdır, buna tam qadirdir. Azərbaycan Ordusunun yaranmasının və Bakının bolşevik işğalından azad edilməsinin 100-cü ildönümü ilə əlaqədar keçirilən paradlar da ordumuzun qüdrətini bir daha dünyaya nümayiş etdirdi.

Bu gün təməli ulu öndər Heydər Əliyev tərəfindən qoyulan ordumuz müstəqilliyimizin, dövlətçiliyimizin qarantıdır. Yeni inkişaf mərhələsinə qədəm qoyan Azərbaycan Ordusu xalqımızın güvənc yeridir. Fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm və qüdrətli dövlətə çevrilib və Ümummilli Liderimizin reallaşdırdığı inkişaf konsepsiyası sayəsində iqtisadi, siyasi, hərbi və digər sahələrdə əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır.

**"Azərbaycan Ordusu"**

# NATO Müdafiə Kollecinin nümayəndə heyəti ölkəmizdə səfərdədir

*Roma (İtaliya Respublikası) şəhərində yerləşən NATO Müdafiə Kollecinin nümayəndə heyətinin Azərbaycana akademik səfəri başlayıb.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, müxtəlif ölkələri təmsil edən 100 nəfərədək dinləyici və müəllim ölkəmizin iqtisadi, coğrafi, mədəni, tarixi, siyasi və təhlükəsizlik mühiti ilə tanış olacaqlar.

Səfər çərçivəsində müxtəlif dövlət qurumları və ali təhsil müəssisələrini ziyarət edəcək qonaqlara Azərbaycanın sosial-iqtisadi inkişafı, hərbi qüdrəti və qlobal təhlükəsizliyə verdiyi töhfəsi, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında brifinqlər təqdim ediləcək.

# Monitorinq insidentsiz başa çatıb

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, ATƏT-in fəaliyyətdə olan sədrinin şəxsi nümayəndəsinin mandatına uyğun olaraq, dekabrın 13-də Azərbaycan və Ermənistan dövlət sərhədinin Qazax rayonu istiqamətində keçirilən monitorinq insidentsiz başa çatıb.

*Heydər Əliyev irsini öyrənirik*

# "Fəxr edirik ki, azərbaycanlıyıq"

*Heydər Əliyev böyük tarixi şəxsiyyət idi... Heydər Əliyev ən böyük azərbaycanlı idi... Böyük tarixi şəxsiyyət Heydər Əliyevin irsi Azərbaycan üçün zaman-zaman öyrəniləcək. Hamı öyrənəcək, mülki vətəndaşlar da, hərbçilər də...*



Ulu Öndərin uğurlu daxili və xarici siyasəti Azərbaycanın dövlət olaraq möhkəmlənməsini təmin etdi. Digər sahələrlə bir sırada Azərbaycanda ordu quruculuğuna da böyük diqqət yetirildi. Dahi tarixi şəxsiyyətin fenomenal dövlətçilik dühası bu sahədə də əsaslı dönüş yaradılmasını təmin etdi. Qısa müddətdə yerli müdafiə batalyonları buraxıldı, ordunun nizami ordu kimi formalaşmasına başlanıldı - ordumuz elmi əsaslarla formalaşdı, vahid komandanlıq təmin edildi. Məhz bunun nəticəsiydi ki, Horadiz əməliyyatı qələbəylə nəticələndi. Bu qələbə ordunun şəxsi heyətinin mənəvi-psixoloji hazırlığında müstəsna rol oynadı. Əhali inandı ki, ordumuz torpaqlarımızı işğaldan azad edəcəkdir.

Ulu Öndərin ön xətdə yerləşən hərbi hissələrdə zabit və əsgərlərlə görüşləri, hərbi xidmətdə fərqlənənlərin səngərlərdə təltif edilməsi də şəxsi heyətin döyüş ruhunu, qələbə əzmini artırdı.

Ulu öndər Heydər Əliyev hərbi təhsilə böyük diqqət yetirirdi. Ümummilli Lider hələ Sovetlər dönəmində, olduqca ciddi qadağalar zamanında sonralar Cəmşid Naxçıvanski adına Hərbi Lisey adlandırılacaq hərbi məktəbin yaradılmasına nail olmuşdu. Ölkə rəhbərinin Hərbi liseydə, sonralar adını daşıyacaq Ali Hərbi Məktəbdə kursantlarla, məktəblərin professor, müəllim heyətiylə, zabitlərlə görüşləri hərbi təhsilə uğur qazandıran zəmanət görüşləri kimi tarixləşdi.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin bir kəlamını xatırlayıram: "Azərbaycan güclü dövlətdir və onun güclü ordusu vardır". Azərbaycanın güclü dövlət olmasının da, ordunun güclü ordu olmasının da başlanğıcı Ulu Öndərlə bağlıdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Ulu Öndərin siyasi kursunu uğurla davam etdirir. Danışıqlar baş tutmasa, Ali Baş Komandanın döyüş əmriylə Azərbaycan əsgəri torpaqlarımızı işğaldan azad edəcəkdir...

Böyük tarixi şəxsiyyət, müasir Azərbaycanın dövlətçilik memarı Heydər Əliyev irsi hər bir hərbi qulluqçunun hərbi xidmət amalının tərkib hissəsidir.

Heydər Əliyev irsi azərbaycançılıq ideologiyasıdır. Ulu Öndər deyirdi: "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam!"... Hər bir hərbi qulluqçu Ulu Öndərin bu kəlamını tövsiyə kimi yaşadır, yaşadacaq da.

**Mübariz MUSAYEV,**
**"Azərbaycan Ordusu"**

# Respublika Veteranlar Təşkilatının VIII plenumu keçirilib

Dekabrın 11-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının VIII plenumu keçirilib. AZƏRTAC xəbər verir ki, tədbirdə dövlət nümayəndələri, veteranlar, şəhər və rayon veteran təşkilatlarının sədrləri iştirak ediblər.



Respublika Veteranlar Təşkilatının sədri, istefada olan general-polkovnik Tofiq Ağahüseynov plenumu açaraq tədbirin gündəliyi barədə məlumat verib. Bildirib ki, tədbirdə təşkilatın builki fəaliyyətinin yekunları, 2019-cu il üçün tədbirlər planı və cari məsələlər müzakirə olunacaq.

Gündəlik təsdiqləndikdən sonra Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov qurumun cari ildəki fəaliyyətinin yekunlarına və qarşıda duran vəzifələrə dair hesabat məruzəsi ilə çıxış edib.

Ulu öndər Heydər Əliyevin veteranlara daim diqqət və qayğı göstərdiyini vurğulayan məruzəçi hazırda bu siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini bildirib. Vurğulayıb ki, veteranların sosial müdafiəsinin gücləndirilməsi qurumun fəaliyyətinin əsas istiqamətlərindən biridir. Məqsəd vətənpərvər insanların cəmiyyətdəki mövqeyinin gücləndirilməsi, eləcə də gənclərdə bu hisslərin təşviq olunmasıdır.



Təşkilatın keçirdiyi tədbirlər barədə məlumat verən C.Xəlilov bildirib ki, qurum gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsi, onların Azərbaycan dövlətinə və xalqına sədaqət ruhunda yetişmələri üçün yerli və beynəlxalq səviyyəli çoxsaylı ictimai-siyasi, mədəni-kütləvi mühüm tədbirlər təşkil edib. Azərbaycan Xalq Cümhuriyyətinin və Silahlı Qüvvələrin yaradılmasının, Bakının daşnak-bolşevik işğalından azad olunmasının 100 illik, ümummilli lider Heydər Əliyevin anadan olmasının 95 illik, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyləri və digər tədbirlər təşkilatın mərkəzi aparatında və müxtəlif qurumlarda yüksək səviyyədə qeyd edilib. Qurumun beynəlxalq əlaqələrinin genişləndirilməsi məqsədilə MDB dövlətlərinin veteran təşkilatları ilə iş gücləndirilib. Veteranlarımız apreldə keçirilmiş Prezident seçkilərində fəal iştirak edib və özlərinin layiqli namizədi İlham Əliyevi yekdilliklə dəstəkləyiblər. İkinci Dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 73-cü ildönümü ilə əlaqədar dövlət orqanlarında, ictimai təşkilatlarda, təhsil ocaqlarında, hərbi hissələrdə veteranlarla görüşlər olub.

Oktyabrda Respublika Veteranlar Təşkilatının yaradılmasının 30 illik yubileyi Dünya Veteranları Federasiyasının prezidentinin iştirakı ilə təntənəli şəkildə müxtəlif tədbirlərlə qeyd edilib. Tədbirlərin qonaqlarına ölkəmizdə dövlətin veteranlara qayğısı, Azərbaycanın ərazilərinin 20 faizinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunması, BMT Təhlükəsizlik Şurasının münaqişənin nizamlanması ilə bağlı qəbul etdiyi dörd qətnaməsinin təcavüzkar dövlət tərəfindən yerinə yetirilməməsi barədə məlumatlar çatdırılıb.

Hesabat dövründə təşkilatın Rəyasət Heyətinin iclaslarında veteranların sosial müdafiəsi məsələsi müzakirə olunub, onlara kömək göstərilib. Ötən müddətdə təşkilata veteranlardan daxil olmuş 200-dən çox müraciətlə bağlı müvafiq qurumlara məktublar göndərilib, itkin düşmüş müharibə iştirakçılarının axtarışı davam etdirilib.

Bu il də respublikanın şəhər və rayonlarında yaşayan müharibə, əmək, Silahlı Qüvvələr və hüquq-mühafizə orqanları veteranlarının sayı dəqiqləşdirilib. Məlumatlara görə, 2018-ci ilin noyabrınadək İkinci Dünya müharibəsi iştirakçılarının sayı 540 nəfərdir. Onlardan 10 nəfərinin yaşı 100-dən çoxdur.

Azərbaycan dövləti tərəfindən veteranlara göstərilən diqqət və qayğıdan danışan C.Xəlilov deyib ki, hər il alman faşizmi üzərində Qələbənin ildönümü ərəfəsində Prezident İlham Əliyev müharibə veteranları ilə görüşərək onların problemləri ilə maraqlanır. İkinci Dünya müharibəsi iştirakçılarına verilən birdəfəlik maddi yardımın məbləğinin ildən-ilə artırılması, eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində imzalanmış çoxsaylı fərman və sərəncamlar bu sahəyə dövlət qayğısının bariz nümunəsidir. Respublika Veteranlar Təşkilatı bu qayğını yüksək qiymətləndirir, fəaliyyətini daha səmərəli qurmağa çalışır.

Plenumda çıxış edən Prezident Administrasiyasının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev bildirib ki, Respublika Veteranlar Təşkilatı ölkəmizin ictimai-siyasi həyatında fəallığı və səmərəli fəaliyyəti ilə seçilir, Prezident İlham Əliyevin həyata keçirdiyi siyasəti hərtərəfli dəstəkləyirlər.

Bu ilin ölkə həyatında bir çox mühüm hadisələrlə zəngin olduğunu vurğulayan Ə.Mehdiyev veteranlarımızın bu tədbirlərdə yüksək fəallıq nümayiş etdirdiklərini diqqətə çatdırıb. Veteranların böyük döyüş və mənalı həyat yolu keçərək zəngin təcrübə qazandıqlarını qeyd edən şöbə müdirinin müavini bildirib ki, buna görə də onlara cəmiyyətin ağsaqqalı, müdrik sözü, qəti və aydın mövqeyi olan insanlar kimi hörmət və ehtiram göstərilir. Bu baxımdan veteranların ictimai-siyasi proseslərdə rolu çox böyükdür. Onlar həmişə cəmiyyətdə öndə gedərək aydın şəkildə qəti vətəndaşlıq mövqeyi nümayiş etdirirlər. Azərbaycan dövləti də həmişə veteranlara yüksək diqqət və qayğı göstərir. Dövlət siyasətinin prioritet istiqamətlərindən biri veteranların qayğı ilə əhatə olunması, onların fəaliyyətinin təmin edilməsi üçün lazımı tədbirlərin görülməsidir. Bu gün Respublika Veteranlar Təşkilatının fəaliyyəti üçün yaradılan şərait bütün bunları aydın şəkildə sübut edir.

Bu il ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin və Azərbaycan Ordusunun yaradılmasının 100 illik yubileylərinin yüksək səviyyədə qeyd olunduğunu deyən Ə.Mehdiyev vurğulayıb ki, müxtəlif vaxtlarda Azərbaycan Silahlı Qüvvələrində xidmət edən veteranlarımız ordumuzun xalqımız və dövlətimiz qarşısında vəzifə borcunu yerinə yetirməsi, onun təhlükəsizliyini qoruması, əmin-amanlığının təmin olunması işinə bu gün öz töhfələrini verirlər. Veteranlarımız indi də bu işin öhdəsindən gəlmək əzmi ilə çalışır, qarşıda duran əsas vəzifənin - işğal altındakı ərazilərimizin azad olunması istiqamətində istər orduda, istərsə də cəmiyyətdə hərbi vətənpərvərlik ruhunun artırılması işində fəal iştirak edirlər.

Naxçıvan Muxtar Respublikası Veteranlar Təşkilatının sədri Firudin Süleymanov, Şəki rayon veteranlar təşkilatının sədri Mustafa Əhmədov, Gəncə şəhər veteranlar təşkilatının sədri Yusif Məmmədov və digərləri hesabat dövründə görülən işlərdən danışıblar.

Çıxış edənlər, eləcə də Respublika Veteranlar Təşkilatının Rəyasət Heyətinin üzvü, professor Bəhram Zahidov, Təşkilatın Nəzarət-Təftiş Komissiyasının sədr müavini Salman Babayev və başqaları Respublika Veteranlar Təşkilatının illik fəaliyyətini qənaətbəxş qiymətləndiriblər. Natiqlər yeniyetmə və gənclərimizin milli və hərbi vətənpərvərlik ruhunda tərbiyəsi işində, veteran hərəkatının inkişafında, cəmiyyətimizin həyatında mühüm rol oynayan Respublika Veteranlar Təşkilatının uğurlu fəaliyyətini qeyd edib, qarşıda duran vəzifələrdən danışıblar. Plenumun iştirakçıları Respublika Veteranlar Təşkilatının hər zaman dövlətin yanında olduğunu, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək onu dəstəklədiklərini bildiriblər.

Daha sonra C.Xəlilov gündəlikdəki ikinci məsələ olan Respublika Veteranlar Təşkilatının 2019-cu il üçün tədbirlər planı barədə məlumat verib.

Plenumda müzakirəyə çıxarılan məsələlər, o cümlədən Respublika Veteranlar Təşkilatının tədbirlər planı, habelə qurumun hesabat dövründəki fəaliyyətinin yekunları səsə qoyularaq qənaətbəxş hesab edilib.

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyə Suriyanın şimal-şərqində əməliyyat keçirməyə hazırlaşır



Türkiyə ordusu yaxın günlərdə Fərat çayının şərq sahilində terror qruplaşmalarına qarşı hərbi əməliyyata başlamaq niyyətindədir.

Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan deyib.

"Biz Fərat çayından şərqdə yaşayan əhaliyə qətiyyətlə sülh və əmin-amanlıq gətirmək istəyirik. Biz heç vaxt nə ABŞ hakimiyyətinə, nə də Suriyadakı amerikalı hərbçilərə qarşı çıxmamışıq. Amerikanı gələcəkdə də birgə yol gedəcəyimiz strateji tərəfdaş olaraq görürük. Suriya böhranına dair aramızdakı fikir ayrılıqlarının gələcəkdəki böyük iş birliyimizin önündə əngəl olmasına yol verməməliyik", - deyə Türkiyə lideri Ankarada çıxışı zamanı bildirib.

Prezidentin sözlərinə görə, Türkiyə hazırlanan əməliyyat barədə ABŞ-ı məlumatlandırıb.

## Strasburqun meri şəhərdə baş verənləri terror aktı adlandırıb

Dekabrın 11-də Strasburq şəhərində baş verən silahlı insident terror hücumu olub.



Bunu Strasburq şəhərinin meri Rolan Ris mətbuat konfransında bildirib.

Xatırladaq ki, dekabrın 11-də axşam saatlarında Strasburq şəhərinin mərkəzindəki Yeni il yarmarkasında naməlum şəxs ətrafdakı insanlara atəş açıb. Son məlumata əsasən, insident nəticəsində ən azı 3 nəfər həlak olub, 13 nəfər isə müxtəlif dərəcəli xəsarətlər alıb. KİV-lərin məlumatına görə, hücumda 29 yaşlı Strasburq sakini şübhəli bilinir. Hadisə yerindən qaçan cinayətkarın axtarışına hüquq-mühafizə orqanlarının yüzlərlə əməkdaşı səfərbər olunub.

## Naməlum şəxsin açdığı atəş nəticəsində iki israilli həlak olub



İordan çayının qərb sahilində naməlum şəxsin hücumu nəticəsində iki israilli həlak olub, iki nəfər isə ağır yaralanıb.

İsrail ordusunun mətbuat xidməti tərəfindən yayılan məlumata görə, fələstinli avtobus dayanacağındakı insanlara atəş açıb. Ölənlərin və yaralananların mülki şəxslər, yaxud hərbçilər olduğu barədə məlumat verilmir.

Atəş açan şəxs Fələstinin faktiki paytaxtı Ramallahda gizləndiyi üçün İsrail ordusu şəhərin giriş və çıxışı yollarını nəzarət altına alıb. Hazırda onun axtarışı davam edir.

## Əfqanıstanda kamikadze minalanmış avtomobillə hərbi karvana hücum edib

Kabil şəhəri yaxınlığında terrorçu-kamikadze minalanmış avtomobillə hərbi karvana hücum edib.



Hücum nəticəsində Əfqanıstan kəşfiyyat xidmətinin azı 4 əməkdaşı həlak olub, 6 nəfər isə yaralanıb. Hadisə paytaxt əyalətinin Paqman bələdiyyəsinin ərazisində baş verib.

Hələlik ölkədə fəaliyyət göstərən heç bir qruplaşma hücumun məsuliyyətini üzərinə götürməyib.

**AZƏRTAC-ın materialları əsasında**

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | leytenant Mahmud MÖHBALIYEV | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 1027 Nüsxə 3525 |